

# 125 illiyə açılan pəncərə

***XIX əsrin qurtarmasına hələ çox var idi. Dini xurafatın fironluq etdiyi əyyam idi. Belə bir məqamda qədim Naxçıvan torpağının neçə-neçə işıqlı ziyalısı, mütərəqqi gəncləri bir yerə toplaşaraq teatr tamaşası göstərməyə başladılar.***

124 il bundan öncə qədim Naxçıvan torpağında yay günlərində «Zaviyyə» məhəlləsində dövrün mütərəqqi ziyalılarından biri olan Hacı Nəcəf Zeynalovun evində Mirzə Fətəli Axundovun «Müsyo Jordan və Dərviş Məstəli şah» komediyası tamaşaya qoyulmuşdur. 1883-cü il may ayının 15-də tamaşaya qoyulan bu ölməz komediya Naxçıvan teatrının təvəllüd tarixinə çevrilmişdir.

Mirzə Fətəli Axundovun bu ölməz komediyasının tamaşaya qoyulmasında Eynalı bəy Sultan, Mirzə Sadıq Qulubəyov, Əbülqasım Sultanov, Mirzə Cəlil Şürbi, Paşa ağa Sultanov və başqa ziyalılar əsl mənada fədakarlıq göstərdilər. Və bu tamaşadan ruhlanan ziyalılar bir-birinin ardınca Mirzə Fətəlinin «Lənkəran xanın vəziri», «Xırs quldurbasan», «Hacı Qara» pyeslərini də tamaşaçılara göstərdilər.

Mirzə Fətəli Axundovun xalq həyatını bütün canlılığı və təbiiliyi ilə göstərən, illərin sınağından çıxmış ölməz komediyaları həm Naxçıvan teatrının, həm də realist aktyor sənətinin formalaşmasında, yetkinləşməsində son dərəcə böyük əhəmiyyətə malik olmuşdur.

1889-cu il mart ayının 27-də naxçıvanlı Mirzə Alməmməd Xəlilovun evində «Müsyo Jordan və Dərviş Məstəli şah» komediyası tamaşaya qoyuldu (Bu əsər ikinci dəfə idi ki, oynanılırdı C.V). Əsərdə əsas rolları ifa edirdilər. Müsyo Jordan – Cəlil Məmmədquluzadə, Hatəmxan ağa-Əliqulu Sultanov, Məstəli şah – Mirzə Ələkbər Süleymanov, Şahbaz bəy – Ə.Şeyxov, Şərəfnisə – M.R.Xəlilov, tamaşanın rejissoru – Mirzə Cəlil və Eynalı bəy Sultan, suflyoru isə M.S.Xəlilov idi.

Naxçıvan teatrının fədailəri neçə-neçə çətinliklərə və məhrumiyyətlərə rast gəlsələr də irəliyə, gələcəyə doğru inamla baxırdılar. Böyük yazıçımız Ə.B.Haqverdiyevin müdrik bir kəlamını yada salmaq istərdik: «Artistliyin yolları ağır və tikan ilə doludur. Ayağa batan tikanların ağrılarına davam edib, mərdanə getməyin axırda işıqlı mənzilə yetməyi şübhəsizdir».

1889-cu ildə böyük ziyalı Məmmədtağı Sidqinin rejissorluğu ilə N.B.Vəzirovun «Ev tərbiyəsinin bir şəkli» pyesi göstərildi. Tamaşada Böyükxan Naxçıvanlı, Y.Kəngərli, Ə.Şeyxov, Ə.Sultanov iştirak edirdilər. Elə buradaca qeyd etməyi lazım bilirəm ki, N.B.Vəzirovun «Müsibəti-Fəxrəddin», «Pəhlivani-zəmanə», «Sonrakı peşmançılıq fayda verməz», «Daldan atılan daş topuğa dəyər», «Yağışdan çıxdıq, yağmura düşdük» pyesləri uzun illər Naxçıvan teatrının repertuarında özünə əsas yer tutmuşdur. Ə.B.Haqverdiyevin də pyeslərinə həmişə geniş meydan verilmişdir. «Bəxtsiz cavan», «Dağılan tifaq», «Pəri cadu» pyesləri Naxçıvan teatrına şöhrət və hörmət gətirirdi. Naxçıvan teatrını ağır və çətin sınaqlardan öz çiyinlərində aparan və işıqlı bir mənzilə yetirmiş olan nəcib, xeyirxah teatr fədailərinə böyük xidmətlərinə görə bu gün də dərin ehtiramımızı bildiririk. Rza Təhmasib, Rza İsfəndiyarlı, Səməd Mövləvi, Həsən Səfərli, Mirhəsən Mirişli, Əli Xəlilov, Heydər Muradov, Muxtar Nəsirov, Böyükxan Naxçıvanlı, Miribrahim Həmzəyev, İsa Musayev, Əyyub Haqverdiyev, Firuzə Əlixanova, Xədicə Qazıyeva, Zəroş Həmzəyeva, Zemfira Əliyeva, Sona Mirzəyeva və başqaları bu ehtirama layiq sənətkar olublar.

İyirminci yüzilliyin ilk illərində Naxçıvan teatrının sənət iqlimində ciddi dönüş yaranırdı. Bakıda yaşayan teatr xadimləri ilə yaradıcılıq körpüsü salınırdı. Azərbaycan teatrının qüdrətli ustadları Zülfüqar Hacıbəyovun, Sidqi Ruhullanın, Cəlil Bağdadbəyovun, Mirzəağa Əliyevin, Abbas Mirzə Şərifzadənin, Mərziyə xanım Davudovanın və digərlərinin tez-tez Naxçıvana gəlməsi və yerli aktyorlarla birlikdə çıxışları teatrın professional səviyyəsini artırırdı. Aktyorlar mənən inkişaf edirdilər

Naxçıvan teatrının yaranma tarixindən və onun bədii mənzərəsindən söhbət açanda böyük maarifçi Cəlil Məmmədquluzadənin adını çəkməmək qeyri mümkündür. Mirzə Cəlil Naxçıvan teatrının banilərindən biridir. Onun ölməz pyesləri, «Ölülər», «Anamın kitabı», «Dəli yığıncağı» tragikomediyaları 124 illik teatrın ən məzmunlu və ən qiymətli tamaşalarından biri olmuş və bu gün də səhnədədir.

1917-ci ildə ölməz sənətkar Rza Təhmasibin rejissorluğu ilə «Ölülər» əsəri tamaşaya qoyuldu və Naxçıvanın mədəni həyatında böyük sensasiyaya səbəb oldu. «Ölülər» Naxçıvan teatrının səhnəsində görünməmiş uğur qazandı. Qüdrətli aktyor Rza Təhmasibin və molla nəsrəddinçi şair Əliqulu Qəmküsarın böyük məharətlə yaratdıqları İsgəndər və Şeyx Nəsrullah obrazları Azərbaycan teatr tarixinə qızıl hərflərlə yazıldı. Qeyd etmək

lazımdır ki, Naxçıvan teatrının təşəkkülündə Rza Təhmasibin böyük xidmətləri olmuşdur. «Ölülər», «Arşın mal alan», «Dağılan tifaq», «Bəxtsiz cavan» kimi tamaşaların uğuru ilk növbədə Rza Təhmasibin adı ilə bağlıdır. Elə buradaca qeyd etmək istərdim ki, adları çəkilən bu tamaşaların rəssamı böyük istedad sahibi Bəhruz bəy Kəngərli olmuşdur.

Qüdrətli sənətkar Rza Təhmasibin böyük bir xidməti də ondan ibarət olmuşdur ki, o, Naxçıvan səhnəsində qız və qadınların cəlbində də xüsusi yanarlıq göstərmişdir. Məhz onun və görkəmli Azərbaycan yazıçısı Rəşid bəy Əfəndiyevin təşəbbüsü ilə 1917-ci ildə Üzeyir Hacıbəyovun «Arşın mal alan» musiqili komediyası tamaşaya qoyulmuşdur. Ən yaddaqalan hadisə bu idi ki, tamaşada iştirak edən ifaçıların hamısı qız və qadınlar olmuşdur. Hətta kişi rollarını da məhz qadınlar oynamışlar. Bu hal Azərbaycan teatr tarixində ən qiymətli və unudulmaz səhifələrdən biridir. Məhz bu tamaşadan sonra naxçıvanlı qız və qadınların teatra gəlişi xeyli dərəcədə artmışdır.

20-ci illərdə Naxçıvan teatrının ab-havasında, sənət iqlimində ciddi dönüş əmələ gəldi. Teatr sözün əsil mənasında məfkurə xarakterinə uyğun olaraq S.S.Axundovun «Laçın yuvası» pyesini tamaşaya qoydu.

Bir çox adlı-sanlı aktyorlar teatra dəvət olundular. Bakıdan və başqa şəhərlərdən rejissorlar teatra işləməyə gəldilər. Güclü aktyor ansamblı yarandı. Naxçıvan teatrının formalaşmasında böyük əməyi olan Səməd Mövləvi 20-ci illərin əvvəllərində həmişəlik olaraq Təbrizdən Naxçıvana gəldi. Onun gəlişi opera və musiqili komediyaların oynanılmasına güclü təkan verdi və repertuarda Azərbaycan klassiklərinə müntəzəm surətdə müraciət edilirdi. Bir rejissor kimi onun çox güclü fədakarlığı olmuşdur. S.Möhləvi Naxçıvan teatrında Məcnun, Kərəm, Aşıq Qərib, Sərvər, Əsgər... kimi zəngin musiqili rolları gözəl ifa etmişdir.

Naxçıvan teatrı iki istiqamətdə – həm romantik, həm də realist səpgidə formalaşmağa başlayırdı. Hüseyn Cavidin və Cəfər Cabbarlının pyesləri Naxçıvan teatrına yeni sənət iqlimi gətirirdi. Ümumiyyətlə, qeyd etmək istərdim ki, Hüseyn Cavidin, Cəfər Cabbarlının əksər əsərləri Naxçıvan teatrının repertuarında xüsusi mərhələ təşkil etmişdi. Bir çox adlı-sanlı aktyorların, rejissorların, Səməd Mövləvinin, İbrahim Həmzəyevin, İsa Musayevin, Əyyub Haqverdiyevin, Zəroş xanım Həmzəyevanın, Zemfira xanım Əliyevanın, Vaqif Əsədovun, Kamran Quliyevin, Həsən Ağasoyun, Rza Xudiyevin, Yasəmən xanım Ramazanovanın bir sənətkar kimi ərsəyə gəlməsində H.Cavidin və C.Cabbarlının dərin məndəricəli səhnə əsərlərinin böyük əhəmiyyəti olmuşdu. Elə buradaca yada salmaq vacibdir ki, Azərbaycan Respublikasının xalq artisti Zəroş xanım Həmzəyeva Cəfər Cabbarlının bütün baş qadın qəhrəmanlarını oynamışdır. Onun böyük sənətkarlıqla yaratdığı Solmaz, Almaz, Sevil, Gültəkin, Səriyyə, Sara, Sona, Yaqut, Sitarə bu gün də teatr sevənlərimizin qəlbində yaşayır. Zəroş xanımın xüsusi məhəbbətlə rəsm etdiyi «Şeyx Sənan» və «Səyavuş» mənzum pyeslərində Xumar və Südabə obrazları da Naxçıvan teatrının salnaməsinə xüsusi cazibədarlıq gətirən səhnə surətlərindən olmuşdur.

1937-ci ildə Mirzə İbrahimovun «Həyat» pyesinin tamaşaya qoyulması Muxtar Respublikanın mədəni həyatında əlamətdar bir hadisəyə çevrilmişdir. Bu uğurlu tamaşadan sonra 1939-cu ildə Həsən Əliyevin tamaşaya qoyduğu «Vaqif» mənzum pyesi diqqəti çəkdi. «Həyat» pyesinə quruluş verən Yusif Yulduz və «Vaqif» pyesinə quruluş verən Həsən Əliyev gözəl tamaşa yaratmağa müvəffəq olmuşlar. İbrahim Həmzəyevin, İsa Musayevin, Səməd Mövləvinin, Mirhəsən Mirişlinin, Xədicə Qazıyevanın, Firuzə Əlixanovanın, Əyyub Haqverdiyevin, Abbas Quliyevin, Ruxsarə Ağayevanın, Əyyub Abbasovun və başqalarının hər iki tamaşada ifa etdikləri rollar gözəl ifaçılıq manerası ilə diqqəti cəlb edirdi.

Böyük Vətən Müharibəsi illərində Naxçıvan teatrının repertuarında qəhrəmanlıq və vətənpərvərlik ideyalı əsərlərə böyük meydan verməklə tamaşaçılara nəcib hisslər aşılanırdı. Səməd Vurğunun «Fərhad və Şirin», Rəsul Rzanın «Vəfa», Zeynal Xəlilin «İntiqam», Məmməd Hüseyn Təhmasibin «Aslan yatağı», Konstantin Simonovun «Vətən oğlu» pyesləri müharibə illərinin ən gözəl, ən samballı tamaşaları idi. Qeyd etmək yerinə düşərdi ki, həmin pyeslərin əksəriyyətinin quruluşçu rejissoru İbrahim Həmzəyev olmuşdur. Və bir cəhət də diqqəti cəlb edirdi ki, uzun illər Naxçıvan teatrının direktoru və baş rejissoru olmuşdur. Klassik və çağdaş səhnə əsərlərinə parlaq quruluşlar verən İbrahim Həmzəyev eyni zamanda baş rolların da gözəl ifaçısı olmuşdur. Onun məharətlə yaratdığı Qaçaq Nəbi, Qatır Məmməd, Şeyx Sənan, Bəhram, Elxan, Vaqif, Fərhad, İmamyar, Seyran... kimi rollar özünün peşəkarlığı ilə ən yüksək səviyyədə idi. Bir daha xatırlatmağı vacib bilirəm ki, İbrahim Həmzəyev böyük bir aktyor nəsli yetirmişdir. Azərbaycan Respublikasının xalq artistləri Zəroş xanım Həmzəyeva, Məmməd Quliyev, Sofiya xanım Hüseynova, Əkbər Qardaşbəyov, Aydın Şahsuvarov, İbrahim Bənəniyarlı, Roza xanım Cəfərxanova, əməkdar artistlər Pakizə xanım Məmmədova, Tamara xanım Məmmədova, Tofiq Mövləvi, Müzəffər Səfərov və başqaları bir aktyor kimi formalaşmağında məhz İbrahim Həmzəyevə borcludur.

Məlumdur ki, həqiqi sənət xalqları bir-birinə yaxınlaşdırır, onların dostluq və qardaşlıq hisslərinə təsir etmək üçün qüvvətli vasitəyə çevrilir. Naxçıvan teatrı yarandığı gündən məhz ideya istiqamətində irəliləmiş və



inkişaf etmişdir. N.Qoqolun, M.Qorkinin, A.Çexovun, A.Ostrovskinin, K.Simonovun, A.Korneyçukun, L.Lenovun, Vs.İvanovun, B.Lavrenyevin... və başqa dramaturqların əsərləri Naxçıvan teatrında tamaşaya qoyulmuş və həmin tamaşalar yüksək sənətkarlıqla qəbul olunmuşdur.

Naxçıvan teatrı Şeksprin, Şillerin, Hüqonun, Holdonin, Lope de Veqanın və başqa qərb dramaturqlarının zəngin mənəviyyatlı səhnə əsərlərinə də dönə-dönə müraciət etmişdir. Bu tamaşaların quruluşçu rejissorları Səməd Mövləvi, İbrahim Həmzəyev, Baxşı Qələndərli, Vəli Babayev, Vaqif Əsədov, Əliqismət Lalayev və başqaları gözəl tamaşa yaratmaq üçün sözün əsl mənasında yaradıcı axtarışların fövqündə dayanmışlar.

Naxçıvan teatrında yeniliyə həmişə güclü meyl olmuşdur. Bu meyl Vəli Babayev, Vaqif Əsədov, Əliqismət Lalayev, Kamran Quliyevin quruluşlarında daha çox diqqəti cəlb etmişdir. Xüsusən 70-80-ci illərdə Naxçıvan teatrının bədii həyatında ciddi dönüş yaranmışdır. Repertuara daxil edilən əsərlərə qismən nəzər salsaq bunu aydınlığı ilə görə bilərik.

Anarın «Adamın adamı», Rüstəm İbrahimbəyovun «Yaşıl qapı arxasında», «Kabinet əhvalatı», Əkrəm Əylislinin «Quşu uçan budaqlar», «Qiymətli qafiyələr», «Mənim nəğməkar bibim», «Bir cüt bədmüşk ağacı» İmran Qasımovun «Nağıl başlandı...», Ramiz Rövşənin «Dərs», Ramiz Heydərin «Bahar qız», Loğman Rəşidzadənin «Toya bir gün, bir günorta qalmış», Cahan Əfruzun «Qanqın böyük dalğası»... tamaşaları özünüəxlaqi-etik problemi, müasirlik duyğusu ilə, ən başlıcası isə maraqlı rejissor təfsiri və yaddaqalan aktyor oyunu ilə diqqəti çəkir.

Azərbaycan Respublikasının xalq artisti, istedadlı rejissor Vaqif Əsədovun rejissorluğu ilə tamaşaya hazırlanan yunan dramaturqu Sofoklun «Elektra» və Əkrəm Əylislinin «Mənim nəğməkar bibim» tamaşaları Tiflisdə və İrəvanda keçirilən Ümumittifaq teatr festivallarının baş mükafatına layiq görülmüşdür.

Ümumiyyətlə, 70-80-ci illərdə diqqəti cəlb edən mühüm cəhətlərdən biri də bu idi ki, o illərdə Naxçıvan teatrı türk dramaturgiyasına geniş meydan verirdi. Bu sahədə Azərbaycan Respublikasının əməkdar artisti, mərhum rejissor Vəli Babayevin xidmətləri danılmazdır. 1968-ci ilin sonunda mərhum sənətkarımız Vəli Babayev dünyaşöhrətli dramaturq Nazim Hikmətin Vera Tulyakova ilə birlikdə yazdıqları «Kor padşah» pyesini tamaşya qoymuşdur. Bundan sonra Vəli Babayev Nazim Hikmətin «Bayramın birinci günü», Rəşad Nuri Güntəkinin «Dodaqdan qəlbə», Orxan Kamalın «Yad qızı», İbrahim Oflasoğlunun «Dəli İbrahim» tamaşalarına quruluş vermişdir. Naxçıvan teatrında rejissor Əsgər Əsgərovun Nazim Hikmətin «Qəribə adam» və Əziz Nesinin «Ölən adam» tamaşaları da xüsusi diqqət çəkmişdir. Və elə bu günün özündə Naxçıvan teatrında türk dramaturgiyasına müraciət davam etməkdədir. Hazırda teatrda Rəşad Nuri Güntəkinin, Halqun Tanerin, Nazim Hikmətin əsərləri hazırlanır.

124 yaşlı Naxçıvan teatrının tarixinə nəzər salanda biz orada İslam Səfərlinin, Cabbar Məcnunbəyovun, İlyas Əfəndiyevin, Sabit Rəhmanın, Əyyub Abbasovun, Zeynal Xəlilin, Mirzə İbrahimovun, Mehdi Hüseynin əsərlərinə də geniş meydan verilməsinin şahidi oluruq. Bu dramaturqların ayrı-ayrı səhnə əsərləri müxtəlif illərdə ayrı-ayrı rejissorlar tərəfindən uğurla tamaşaya qoyulmuşdu. Sabit Rəhmanın «Toy», «Xoşbəxtlər», «Aydınlıq», «Nişanlı qız», «Əliqulu evlənir» kimi samballı səhnə əsərləri Naxçıvan teatrının bədii salnaməsinə xüsusi cazibədarlıq gətirən tamaşalar olmuşdur. Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi Baxşı Qələndərin Naxçıvan teatrındakı 20 illik fəaliyyəti teatrın həyatında mühüm mərhələdir, desəm səhv etmərəm. Sankt-Peterburqda Ali rejissorluq təhsili alan Baxşı Qələndərli uzun illər İrəvanda fəaliyyət göstərən Azərbaycan Dövlət Dram teatrının baş rejissoru olmuşdur. İrəvan teatrında Baxşı Qələndərlinin hazırladığı bir çox tamaşalar yüksək qiymətə layiq görülmüşdür. 1964-cü ildən 1985-ci ilə qədər Baxşı Qələndərli Naxçıvan teatrında fəaliyyət göstərmişdir. Xeyli illər teatrın bədii həyatına başçılıq etmişdir. Onun rejissorluğu ilə tamaşaya hazırlanmış Kəmalə Ağayevanın «Məhsəti», B.Lavrüonovun «Hücum», A.Şirvanzadənin «Nakam qız», Vs.İvanovun «Zirehli qatar – 14-19», S.Vurğunun «Vaqif», C.Cabbarlının «Solğun çiçəklər», H.Cavidin «Şeyx Sənan», «Şeyda», H.Razinin «Arxalı dağlar», «Haray səsi», Ə.Yusiflinin «Səadət naminə», «Siz xoşbəxt yaşayın», M.Tarverdiyevin «Qəmküsar», H.Fətullayevin «Alınmaz qala», H.Dumbadzenin «Darıxma, ana»... əsərləri özünün zəngin rejissor yozumu ilə böyük diqqət çəkirdi. Bu tamaşalarda Baxşı Qələndərli özünün yüksək peşəkarlığını uğurla nümayiş etdirirdi.

Ümumən qeyd etmək lazımdır ki, Naxçıvan teatrında samballı rejissorlar nəsli yetişmişdir. Səməd Mövləvi, İbrahim Həmzəyev, İsa Musayev, Əli Hüseynov, Həsən Ağayev, Baxşı Qələndərli, Vəli Babayev, Nəsir Sadıqzadə, Vaqif Əsədov, Əliqismət Lalayev, Kamran Quliyev, Yasəmən Ramazanova, Rövşən Hüseynov maraqlı və yaddaqalımlı tamaşaları ilə həmişə nəzərə çarpmışlar.

Qədim sənət məbədinin tarixini araşdırarkən burada fəaliyyət göstərən böyük rəssamlar nəslinə rast gəlirsən. XX əsrin onuncu illərində Naxçıvan teatrında tamaşaya hazırlanan əsərlərin əksəriyyətinin quruluşçu rəssamı, böyük Azərbaycan boyakarı Bəhruz bəy Kəngərli olmuşdur. Bu tamaşalar sırasına «Ölülər», «Pəri ca-

du», «Dağılan tifaq», «Bəxtsiz cavan», «Hacı Qara», «Müsibəti-Fəxrəddin»... kimi klassik əsərlər daxildir.

Sonrakı illərdə Adil Qazıyev, Əyyub Hüseynov, Məmməd Qasımov, Yuran Məmmədov, Mircəlil Seyidov, Məmmədli İsmayılov, Hüseynqulu Əliyev, Əbülfəz Axundov, Səyyad Bayramov Naxçıvan teatrında ayrı-ayrı vaxtlarda quruluşçu rəssam işləmişlər. Yeri gəlmişkən yada salmaq istərdim ki, Naxçıvan Muxtar Respublikasının əməkdar incəsənət xadimi Məmməd Qasımov 30 ildən artıq fasiləsiz olaraq Naxçıvan teatrının baş rəssamı işləmişdir. 105 tamaşanın quruluşçu rəssamı olan Məmməd Qasımov özünün yüksək peşəkarlığı ilə fərqlənirdi. Məmməd Qasımov sözün əsl mənasında görkəmli rəssam idi.

Bir faktı da yada salmaq yerinə düşər ki, 124 yaşlı Naxçıvan teatrının fəaliyyətində bəstəkarlar da mühüm rol oynamışlar. Xüsusən də bu sahədə Naxçıvanda fəaliyyət göstərən bəstəkarlar teatrla sıx əlaqə saxlamışlar. Ənvər Hüseynov, Adil Kəngərli, Məmməd Cavadov, Məmməd Ələkbərov, Rəşid Məmmədov, Səfər Rəcəbli, Ramiz Mirişli, Nəriman Məmmədov, Yusif Əsgərov, Şəmsəddin Qasımov, Əkrəm Məmmədov... Naxçıvan teatrında tamaşaya qoyulan əsərlərə maraqlı musiqilər yazmışlar.

Naxçıvan teatrında yerli müəlliflərin pyeslərinə həmişə böyük diqqət verilmişdir. Hələ 1929-cu ildə naxçıvanlı şair Müzəffər Nəsirlinin «Azadlıq günəşi» pyesinin tamaşaya qoyulması gələcək dramaturqların yetişməsinə necə deyərlər xüsusi zəmin yaratmışdır.

Sonrakı illərdə Qurban Qurbanovun, Əbülfəz Abbasquliyevin, İslam Səfərlinin, Hüseyn İbrahimovun, Əliyar Yusiflinin, Hüseyn Razinin, Kəmalə Ağayevanın, Süleyman Rəşidinin, Həsən Elsevərin, Məmmədəli Tarverdiyevin, Ramiq Muxtarın, Novruz Nehrəmlinin, Həmid Arzulunun, Adil Qasımovun, Elman Həbibinin və başqalarının səhnə əsərləri müxtəlif illərdə ayrı-ayrı rejissorlar tərəfindən tamaşaya qoyulmuşdur.

Naxçıvan teatrı həmişə sağlam və ciddi repertuar uğrunda mübarizə aparmışdır. Realist sənətin prinsiplərinə sadiq qalmış Azərbaycan dramaturqlarının əsərləri ilə bərabər dünya dramaturqlarının pyeslərini səhnəyə çıxarmaqda Naxçıvan teatrının böyük ənənəsi var.

124 yaşlı sənət ocağı repertuar tərtibində, aktyor və rejissor yaradıcılığında, tamaşaların estetik zövqlərinin formalaşmasında yüksək sənət meyarını daim əsas götürmüşdür. Elə bu prinsiplə də qədim Naxçıvan teatrı irəliyə doğru addımlayır.

Azərbaycanda müstəqillik yaranandan sonra Naxçıvan teatrının sənət mənzərəsində yeni axtarışlar, yeni qastrol səfərləri diqqəti cəlb edir. Teatr son illərdə repertuar tərkibinə xüsusi diqqət yetirir. Son ildə Naxçıvan teatrı səkkiz dəfə Türkiyə Respublikasına, onun ayrı-ayrı bölgələrinə qastrol səfərlərinə çıxmışdır. İstanbulda, Ankarada, Bursada, Ərzurumda, Qarsda, İqdirdə qastrolda olan Naxçıvan teatrı dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyovun «O olmasın, bu olsun», «Arşın mal alan» musiqili komediyalarını uğurla türk tamaşaçılarına göstərmişlər. Yeri gəlmişkən bir mühüm məsələni də qeyd etməyi lazım bilirəm ki, Naxçıvan teatrında musiqili əsərlərə çox geniş meydan verilmişdir. 1910-cu ildən ta bu günə kimi Azərbaycan bəstəkarlarının - Üzeyir Hacıbəyovun, Zülfüqar Hacıbəyovun, Fikrət Əmirovun, Səid Rüstəmovun, Ağası Məşədibəyovun, Süleyman Ələsgərovun, Vasif Adıgözəlovun, Emin Sabitoğlunun və başqa bəstəçilərimizin ayrı-ayrı operettaları Naxçıvan teatrında böyük uğurla tamaşaya qoyulmuşdur.

Müstəqillik illərində Naxçıvan teatrı öz fəaliyyətində ciddi dönüş yaratmaqla milli klassiklərə – H.Cavid, M.F.Axundov, C.Məmmədquluzadə, N.Nərimanov, İ.Əfəndiyev, çağdaş yazarlar – N.Həsənzadə, Elçin, K.Ağayevanın... yaradıcılığına dönə-dönə müraciət etmişdir.

Xalq artisti Kamran Quliyevin, əməkdar artistlər Yasəmən xanım Ramazanovanın, Rövşən Hüseynovun uğurlu rejissor işləri, Əbülfəz Axundovun, Hüseynqulu Əliyevin, Səyyad Bayramovun quruluşçu rəssam kimi fəaliyyəti tamaşaların vüsətli alınmasına, baxımlı olmasına güclü təkan vermişdir.

«Topal Teymur», «İblis», «Lənkəran xanın vəziri», «Atabəylər», «Pompeyin Qafqaza yürüşü», «Dəli yığıncağı», «Qurbanəli bəy», «Dirilən adam», «Məhsəti», «Hökmdar və qızı», «Fərhad və Şirin», «Sahilsiz çaylar», «Əlincə qalası», «Mənim ərim dəlidir», «Dəlixanadan dəli qaçıb»... kimi tamaşalar özünün peşəkarlığı və təbiiliyilə nəzərlərdə diqqətlənmişdir.

124 yaşlı sənət ocağı müstəqillik yollarında inamlı addımlarını atır. Bu addımlarda qətiyyət, sağlam mövqe və prinsipial xətt vardır. Yaxın Şərqin ən qocaman sənət ocaqlarından biri olan Naxçıvan teatrı daima axtarışdadır. Qədim sənət ocağı özünün şanlı yubileyini, 125 illiyini layiqli sənət əsərləri ilə qarşılayır.

**Cəlil VƏZİROV,**
***AMEA Naxçıvan bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun elmi katibi, Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi, R.Rza adına Beynəlxalq ədəbi mükafatı laureatı***